# Hesabat yığıncaqları keçirilir

Qəbələ rayonunun inzibati ərazi üzrə nümayəndəliklərində 2018-ci ildə görülmüş işlər və qarşıda duran vəzifələrə dair hesabat yığıncaqları keçirilir.

Yanvarın 8-də rayonun Aydınqışlaq kəndində keçirilən yığıncaqda Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova, kənd ictimaiyyətinin nümayəndələri, ziyalılar, acsaqqallar və digərləri iştirak etmişlər.

İclasda icra hakimiyyəti başçısının bu inzibati ərazi üzrə nümayəndəsi Şahin Xancanov 2018-ci ildə görülmüş işlər və 2019-cu ildə qarşıda duran vəzifələrə dair məruzə etmişdir.

Nümayəndə qeyd etmişdir ki, 2018-ci il respublikamız üçün uğurlu il olmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda çox mühüm və nəhəng layihələr həyata keçirilmiş, respublikamızın beynəlxalq aləmdə nüfuzu daha da artmışdır.



Qəbələ rayonu da Azərbaycanın sürətli inkişafından geri qalmamış, rayonda icrası nəzərdə tutulan bütün sosial-iqtisadi məsələlər, quruculuq-abadlıq işləri uğurla yerinə yetirilmişdir.

Məruzəçi qeyd etmişdir ki, Aydınqışlaq kəndində də 2018-ci ildə rayonun ümumi inkişaf prosesinə uyğun işlər görülmüşdür. Ərazidə kənd təsərrüfatı məhsulları istehsalı əvvəlki illə müqayisədə xeyli artmışdır. Ölkə Prezidentinin ixracyönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması barədə tapşırıqlarına və bu sahənin inkişafında göstərdiyi qayğıya cavab olaraq kənddə baramaçılığın və fındıqçılığın minkişafına xüsusi diqqət yetirilir. Ötən il kənddə 60 qram ipək qurdu toxumu bəslənmiş, 5,6 hektar yeni fındıq bağı salınmışdır.

Ərazidə sosial problemlərin həlli sahəsində də xeyli iş görülmüşdür. Kənd tam orta məktəbin binası əsaslı təmir olunmuş, ərazisi abadlaşdırılmışdır. Əhalinin içməli suya olan tələbatını daha da yaxşılaşdırmaq üçün kənddə əlavə 1 ədəd artezian quyusu qazılmış, kəndarası yollara çınqıl tökülərək hamarlanmışdır. Kənd əhalisi fasiləsiz elektrik enerjisi və təbii qazla təmin olunmuşdur.



İcra nümayəndəsi 2019--cu ildə kənddə görüləcək işlər barədə də yığıncaq iştirakçılarına ətraflı məlumat vermişdir.

Kənd tam orta məktəbinin direktoru Sevil Nəbiyeva, Aydınqışlaq Bələdiyyəsinin sədri İmran Cabbarov, kənd ağsaqqallarından Aləddin İsgəndərov, müəllim Sənani Məmmədov və başqaları yığıncaqda çıxış etmişlər.

Hesabat yığıncağında iştirak edən rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova 2018-ci ildə respublikada, o cümlədən rayonda sosial-iqtisadi sahədə həyata keçirilən tədbirlər barədə yığıqncaq iştirakçılarına məlumat vermiş, Aydınqışlaq kənd inzibati ərazi nümayəndəliyinin fəaliyyətini təhlil etmiş, 2019-cu ildə inzibati ərazi nümayəndəliyinin fəaliyyətinin daha uğurlu olacağına əminliyini bildirmişdir.

Hesabat yığıncağında müvafiq qərar layihəsi müzakirə edilərək qəbul olunmuşdur.

**Qüdrət SƏMƏDOV,**
**İlkin Vəlizadə (foto),**
**«Qəbələ»**

# 20 Yanvar faciəsinin ildönümü ilə bağlı tədbirlər planı təsdiqlənib

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.

Sərəncama əsasən rayonun bütün yaşayış məntəqələrində, idarə və təşkilatlarda 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələrin təşkili, 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlərin keçirilməsi, mədəni-maarif müəssisələrində faciəyə həsr olunmuş kütləvi tədbirlərin, ümumtəhsil ocaqlarında dərslərin tədris olunması nəzərdə tutulur.

Bundan başqa, sərəncamda yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətin təşkili, saat 12.00-da rayon ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, 20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılıb.

**"Qəbələ"**

# ÜDM-in 0,7 faizi həcmində profisit

***Maliyyə Nazirliyinin Dövlət Statistika Komitəsinə təqdim etdiyi son operativ məlumata əsasən, ötən ilin yanvar-noyabr ayları üzrə Azərbaycanın dövlət büdcəsinin gəlirləri 20 milyard 144,7 milyon, xərcləri isə 19 milyard 670,1 milyon manat olmuşdur. Büdcənin icrasında yaranmış 474,6 milyon manatlıq profisit ÜDM-in 0,7 faizinə bərabər olmuşdur.***

Ötən ilin yanvar-oktyabr ayları üzrə olan məlumata əsasən, büdcəyə daxilolmaların 19,7 faizi əlavə dəyər, 11,9 faizi hüquqi şəxslərin mənfəət (gəlir) vergiləri, 5 faizi xarici iqtisadi fəaliyyətlə bağlı vergilər, 4,5 faizi fiziki şəxslərin gəlir vergisi, 3,4 faizi aksizlər, 2,1 faizi sadələşdirilmiş vergi, 0,9 faizi əmlak vergisi, 1,3 faizi vergilərin digər növləri, 51,2 faizi isə vergi olmayan gəlirlər hesabına təmin edilmişdir.

Bu dövrdə büdcə vəsaitlərinin 34,1 faizi iqtisadiyyatın inkişafı və tənzimlənməsinin, 16,6 faizi ümumi dövlət xidmətlərinin, 11,6 faizi təhsil və səhiyyənin, 11,2 faizi sosial müdafiə və sosial təminat sahələrinin, 26,5 faizi digər sahələrin maliyyələşdirilməsinə xərclənmişdir.

# Qeyri-neft sektorunda məhsul istehsalı 9,1 faiz artmışdır

***2018-ci ilin Azərbaycan iqtisadiyyatında yaddaqalan göstəricilərindən biri də ölkə üzrə sənayeləşmənin sürətlənməsi olmuşdur. Bunun Dövlət Statistika Komitəsinin sözügedən sahəyə aid son məlumatı da təsdiqləyir.***

Məlumatda bildirilir ki, ötən ilin 11 ayı ərzində Azərbaycanda sənaye sahəsində istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 1,4 faiz artaraq 44 milyard manata çatmışdır. Sənayenin qeyri-neft sektorunda 2017-ci ilin eyni dövrü ilə müqayisədə 9,1, neft sektorunda isə 0,3 faiz artım qeydə alınmışdır. Bu dövrdə sənaye məhsullarının 73,4 faizi mədənçıxarma, 21,9 faizi emal, 4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarının payına düşmüşdür. Sənayedə qeyri-dövlət sektorunun payı isə 82,9 faiz olmuşdur.

11 ay ərzində mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 32,3 milyard manat olmaqla 2017-ci ilin eyni dövrünün göstəricisini 0,2 faiz üstələmişdir. Sahənin əsas məhsulu olan xam neftin əmtəəlik hasilatı 35,4 milyon ton, əmtəəlik təbii qazın hasilatı isə 17,4 milyard kubmetr təşkil etmişdir.

Emal sənayesinə gəldikdə, sözügedən dövrdə bu sektorda 9,6 milyard manatlıqdan çox məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

# Bu ilin iş vaxtı norması və istehsalat təqvimi təsdiq edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2018-ci il 25 dekabr tarixli 12 nömrəli qərarı ilə 2019-cu ilin iş vaxtı norması və istehsalat təqvimi təsdiq edilib.

Bu ilin iş vaxtı normasında qeyd olunub ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "2019-cu ildə Novruz, Ramazan, Qurban bayramları haqqında" 2018-ci il 19 dekabr tarixli 856s nömrəli sərəncamına əsasən, bu il yanvarın 1-i və 2-si Yeni il bayramı, 20 Yanvar Ümumxalq Hüzn Günü, 8 Mart Qadınlar Günü, 20, 21, 22, 23, 24 mart Novruz bayramı, 9 May faşizm üzərində Qələbə Günü, 28 May – Respublika Günü, 5, 6 iyun – Ramazan bayramı, 15-i – Milli Qurtuluş Günü, 26 iyun – Silahlı Qüvvələr Günü, 12, 13 avqust – Qurban bayramı, 9 noyabr – Dövlət Bayrağı Günü, 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü iş günləri hesab edilmir.

Əmək Məcəlləsinin 105-ci maddəsinin 5-ci hissəsinə və Nazirlər Kabinetinin "2019-cu ildə Novruz, Ramazan, Qurban bayramları haqqında" 2018-ci il 19 dekabr tarixli 856s nömrəli sərəncamına əsasən, 2019-cu ildə həftələrarası istirahət günlərinin iş günləri hesab olunmayan bayram günləri ilə üst-üstə düşməsi ilə əlaqədar beşgünlük iş həftəsində 25, 26 mart, 17 iyun, 11 noyabr tarixləri, altıgünlük iş həftəsində 25 mart tarixi istirahət günləridir.

Bu il fevral ayı 28 təqvim günündən, il isə 365 təqvim günündən ibarətdir.

Əmək Məcəlləsinin 105-1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikasında bələdiyyə üzvlərinin seçkiləri, həmçinin referendum zamanı səsvermə günü seçki (referendum) keçirilən ərazidə iş günü hesab edilmir. Səsvermə günü qanunvericiliyə uyğun olaraq müəyyən edilir.

Seçki Məcəlləsinin 211.1-ci və 213-cü maddələrinə əsasən, bələdiyyələrin səlahiyyət müddəti beş ildir. Bələdiyyə seçkilərini Mərkəzi Seçki Komissiyası təyin edir və bələdiyyə seçkilərinin təyin olunması barədə qərar onun qəbul edildiyi gündən ən geci 2 gün ərzində kütləvi informasiya vasitələrində rəsmi dərc edilməlidir. 2019-cu ilin iş vaxtı normasının hesablanması məqsədilə rəsmi elan olunanadək şərti olaraq istehsalat təqvimində 2019-cu ilin 27 dekabr tarixi iş günü hesab edilməyən bələdiyyə seçkiləri günü kimi nəzərə alınır.

Bu il beşgünlük iş həftəsində 242 iş günü (onlardan 9-u bayramqabağı, 1-i səsvermə qabağı iş günü), iş günü hesab edilməyən 103 istirahət günü (onlardan 4-ü iş günü hesab edilməyən bayram günləri ilə üst-üstə düşən), iş günü hesab edilməyən 18 bayram (4-ü istirahət günləri ilə üst-üstə düşən), 1 səsvermə günü və istirahət günü ilə üst-üstə düşən 1 ümumxalq hüzn günü var.

2019-cu il üçün 40 saatlıq iş həftəsində iş vaxtının illik norması 1926 saat təşkil edir.